*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 236-242* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.236*

# Yazıçı Anarın əsərlərində magik realizm ünsürləri

**Şəhanə Mahmudzadə**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, dissertant
E-mail: shahane.mushfiq@gmail.com

**Annotasiya.** Magik realizm, gerçəkliklə fantastika arasında sərhədin bulanıq olduğu və real dünyanın mövcudluğunun bir tərəfini fantastik və mistik hadisələrlə birləşdirdiyi bir ədəbiyyat üslubudur. Bu janrın xüsusiyyətləri, Anarın əsərlərində də bəzi paralellər təşkil edir.
Anarın yazılarında bəzi hadisələr və obrazlar gerçəkliklə əlaqəli olsa da, onların təbii qəbul edilməsi çətin ola bilər. Fantastik və gerçək elementlərin bir arada mövcud olması magik realizmin əsas xüsusiyyətlərindən biridir. Məsələn, əsərlərdə qeyri-adi hadisələr, mistik atmosferlər, "görünməyən dünyaların" təsvirləri, eyni zamanda çox zaman real həyatda yer tutan təbii faktlar və obyektlər bir-birinə qarışır. Yazıçının əsərlərində magik realizmin ünsürləri onun özünəməxsus ədəbiyyat üslubunun əsasını təşkil edir. Göstərilən elementlər, oxucuya yalnız fiziki dünyanı deyil, həm də ruhi, mistik və psixoloji dünyaları anlamağa imkan verir. Bu həm Azərbaycan ədəbiyyatında, həm də dünya ədəbiyyatında maraqlı bir yer tutur.
**Açar sözlər:** altmışıncılar, Anar, yazıçının əsərləri, magik realizm, təhlil

**Məqalə tarixçəsi:** göndərilib – 03.11.2025; qəbul edilib – 19.11.2025

# Elements of magic realism in the works of the writer Anar

**Shahane Mahmudzade**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, dissertator
E-mail: shahane.mushfiq@gmail.com

**Abstract.** Magic realism is a literary style in which the boundary between reality and fiction is blurred and one side of the existence of the real world is combined with fantastic and mystical events. The characteristics of this genre, also form some parallels in Anar's works.
Although some events and images in Anar's works are related to reality, it can be difficult to take them for naturally. The coexistence of fantastic and real elements is one of the main characteristics of magical realism. For example, in the works, unusual events, mystical atmospheres, descriptions of "invisible worlds", as well as natural facts and objects that often take place in real life are mixed together. Elements of magical realism in the writer's works form the basis of his unique literary style. The elements shown allow the reader to understand not only the physical world, but also the spiritual, mystical and psychological worlds. This occupies an interesting place in both Azerbaijani and world literature.
**Keywords:** sixties, Anar, writer's works, magical realism, analysis

**Article history:** received – 03.11.2025; accepted − 19.11.2025

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatında magik realizmin ünsürləri, xüsusən müasir dövrün məşhur yazıçılarından biri olan Anarın əsərlərində özünü göstərir. Onun yaradıcılığında realist təsvirlər və məcazlar, eləcə də gerçək həyatın və fantastik elementlərin iç-içə keçməsi, magik realizmin müxtəlif aspektlərinin necə ərsəyə gəldiyini göstərir.

Anarın əsərlərində reallıq və xəyali dünyanın birləşdiyi məkanlarda, zaman və məkanın sərhədləri qeyri-müəyyəndir. Bu vəziyyət, oxucunu reallıqla gerçəklik arasındakı əlaqələri sorğulamağa vadar edir. Əsərlərindəki qəhrəmanlar bəzən fövqəltəbii doğaüstü və mistik hadisələrlə qarşılaşarkən, bunları reallıq kimi qəbul edir, bu da magik realizmin əsas xüsusiyyətlərindən biridir.

Bu məqalədə Anarın əsərlərindəki magik realizm ünsürləri daha dərindən təhlil edilir və onun ədəbiyyatımıza təsiri araşdırılır.

## Əsas hissə / *Main Part*

Altmışıncılarla ədəbiyyatımızda formalaşan yeni nəsrin strukturunda da şüur axınının ünsürlərinə rast gəlmək mümkündür. Bəzi müəlliflər qəhrəmanın duyğularını qismən əks etdirmək məqsədilə psixologizmdən istifadə etsə də, bəziləri bu hissləri əsərin mərkəzinə gətirərək çatdırmaq istədiyi fikrin ifadəsində başlıca metoda çevirir. Şübhəsizdir ki, zahiri davranışlarıyla daxili aləmini əks etdirən yetərincə uğurlu obrazlar yaradılmışdır.

Lakin bu yeniliyin ədəbiyyatda istifadə edilməyə başlaması cəmiyyətdə mövcud olan kamil insan probleminə fərqli yanaşma tərzlərinin yaranmasının təməlini qoydu. Yazıçı qəhrəmanın psixoloji hallarını reallıqla əlaqələndirərək, onun xarakterinin mürəkkəbliyinin səciyyəvi cəhətlərini ortaya çıxarır. İnsanın hiss və düşüncələrinin lirik notlarda tərənnümündən sonra epik planda təsvirinə keçilməsi ədəbiyyatın inkişaf dinamikasının sürətlə və yüksək səviyyəyə doğru artması demək idi. Altmışıncılar adi insanları ədəbiyyata gətirdikləri kimi, onlarla birlikdə daxili həyəcanlarını da ifadə edə bilmək şansı qazandılar.

Anarın “Mən, sən, o və telefon” hekayəsində mistik realizm ünsürlərini duymaq olur. Qəhrəman telefonda yığdığı təsadüfi rəqəmlər sayəsində aşiq olacağı qadının ünvanına düşür və hadisələr bir-birinin ardınca gəlir. Seymurun sevgisi o həddə çatır ki, o Mədinəni telefondakı özündən də qısqanır.

Maraqlıdır ki, hekayədə Mədinənin telefon dostuna da, Seymura da eyni hissləri bəsləməsi və bu iki insanın eyni adam olması əsl sevgininmi təzahürü idi? Yoxsa eyni insana iki fərqli insan kimi aşiq olmaq qeyri-mümkün bir haldır? Hər halda müəllifin obrazların hal və ovqatını belə bir sujetlə əks etdirməsi təsadüfi sayılmamalıdır.

Anarın əsərlərində obrazlar arasında dolayı yolla duyğusal və məntiqi oxşarlıqların olması bu hekayədə birbaşa özünü göstərir. Anarın mən və o olaraq adlandırdığı şəxslər sözün əsl mənasında eyni insandır. Hadisələr o qədər reallığa yaxın formada cərəyan edir ki, bu yalana, hətta Seymurun özü də qəlbinin dərinliyində az da olsa inam bəsləyir.

Yazıçı priyomu hesab olunan bu epizodda biz müəllifin bu hadisəyə nəinki oxucuları, hətta hər şeydən xəbərdar olan qəhrəmanların özlərini də inandırdığını demək istədiyini görürük. Seymurun hər zəngdə Mədinəyə qarşı hiss etdiyi duyğular o qədər məhrəmdir ki, o bunları Mədinəyə etiraf edərək əbədi itirməkdən qorxur. O bir daha Mədinəyə haçansa zəng edə bilməyin qeyri-mümkün olacağı bir həyatda yaşamağı ağlına belə gətirmək istəmir.

İnsanın hal və ovqatını günün müxtəlif saatlarında, müxtəlif məkanlarda ələ keçirən tənhalıq duyğusu bir çox əsərin əsas duyğusudur. Bu duyğu tənhalıq dərdinə düçar olmuş qəhrəmanların bütün ruhunu ələ keçirir və qəlbini öz əlləri arasına alıb ovuclarında bərk sıxır.

Kərim Əsgəroğlunun qəlbini başqa ölkədə dayandıran yalnızlıq duyğusu, Oqtayın xəyanət etmək istəmədiyi yalnızlıq duyğusu, Fuadı kiçik yaşlarından həyatdan istədikləri qarşısında tənhalaşdıran yalnızlıq duyğusu, cəmiyyətin əsla öz içinə daxil olmağa icazə vermək istəmədiyi, özgələşdirilmiş Təhminənin yalnızlıq duyğusu, hər kəsin istədiyi yerə çatanda tərk etdiyi taksinin, Rüstəm tərəfindən bir daha rəqəmlərinə toxunulmayacaq telefon nömrəsinin yalnızlıq duyğusu və bir çox əsərin əsasında duran bu duyğunun qığılcımları, bəzən isə alovları oxucunun qəlbindəki tənhalıq közünü alovlandırır. Anarın qəhrəmanları hamımıza məhrəm duyğuların təcəssümüdür.

Anar yaradıcılığında önəmli yer tutan, işıq üzü gördüyü ilk zamanlardan tənqid və onunla yanaşı, tərif atəşinə tutulan əsərlərdən biri "Gözmuncuğu" povestidir. Mistikanın Azərbaycan ədəbiyyatında ən maraqlı formalarından biri – ölüm və yaşam məhz bu əsərdə əksini tapmışdır. Povest Əhlimanın qəbirdə dirilməsi ilə başlayır. Daha doğrusu, sonradan məlum olur ki, o dəfn olunarkən onsuz da sağ idi. Daha sonra isə hadisələr bir-biri ilə əlaqəsi əvvəldə sezilməyən hissələrin ardıcıl sıralanması ilə davam edir. Anar bu hadisəni təsvir edərkən Yunis İmrənin misralarına üz tutur. Anarın povestdə Yunis İmrə yaradıcılığına müraciəti təsadüfi deyildir.

Yazıçı mətnin sərhədləri daxilində yalnız öz yazdığına deyil, başqalarından gətirdiyi sitatlarda ifadə edilən fikirlərə də cavabdeh olmalıdır. Bu səbəbdəndir ki, müəllif əsərin əsas qayəsini aydın duyur və oxucunun da məsələdən agah olması üçün məqsədəuyğun istinadlara yer verir. Burada biz qəbirdə əl-qolu bağlı şəkildə uzanan insanın sarsıntılarını sanki öz üzərimizdə hiss edirik. Oxuduqca özümüzü dar bir məkanda hiss edir, hətta burnumuzda torpağın nəm qoxusunu da duyuruq.

Əhliman obrazı bizə məlum olan xeyir-şər mövzusundan yola çıxılaraq yaradılmışdır. Müəllif bu obrazın simasında xeyir və şər ünsürlərinin hər ikisini əks etdirmişdir. Əhlimanın povestdə Allaha müraciətlə etdiyi yalvarışları, həyatın saf, təmiz epizodlarını xatırlaması Xeyrin kürəyinə vurulan qırmanclar, başına tökülən soyuq su Şərin yada saldıqları idi.

Digər fəsildə gözünün qarşısında müxtəlif rənglər canlanan Əhlimanın dünyaya yenidən gəlməsi epizodu təsvir olunur. Anar insanın dünyaya gələrkən yaddaşında qalmayan duyğuları sanki bu epizod vasitəsilə yenidən xatırladır. Bu dünyaya göz açmağın digəriylə arasındakı tək fərq bu dəfə Əhlimanın hər şeyi xatırlayacaq olmasıdır. Obrazın başına gələn hadisənin səbəblərini yazıçı onun uşaqlıq illərində axtarır.

İnsanın xarakteri dünyaya gəldiyi ilk andan bəri formalaşmağa başlayır və burada Əhlimanın xarakterində mövcud olan insanlara qarşı istiqamətlənmiş nifrətin səbəbləri də onun uşaqlıq illərində gizlidir. Doğrudur, uşaqlıqda yaşadığı travmalar Əhlimanın içinə neqativ duyğuların yerləşməsinə əsas vermir. İnsan kamil varlıqdır və hadisələrdən nəticə çıxararkən bunu həm özünün, həm də bütün insanların xeyrinə olacaq şəkildə çıxarmalıdır. Lakin Əhliman burada kamil insan deyil və onun mənfi duyğulara köklənməsində uşaqlıqdan özü ilə gətirdiyi nifrətin yetişməsinə uyğun olan mühit də xüsusi rol oynayır.

Anarın qəhrəmanları psixi sarsıntı keçirirsə və içində daxili iztirabları baş qaldırıbsa, sözün əsl mənasında mətn daxilində ora-bura vurnuxur. Qəhrəman gah keçmişə, gah gələcəyə, gah uşaqlığına, gah da ki qocalığına gedərək zaman-məkan tanımadan bu iztirabları sakitləşdirməyə, həll yolu tapıb o yolla əbədiyyətə qovuşmağa çalışır. Əhlimanın Diri Baba ilə baş tutan görüşünün real, yoxsa xəyal olması məsələsi əsərdə cavabsız qalmışdır. Əsərin ümumi mətninə nəzər saldıqda isə bu görüşün başqası ilə deyil, məhz Əhlimanın daxilindəki özü ilə görüşü kimi səciyyələndirmək olar.

Xeyir də, Şər də insanın daxilindədir və nə zaman, hansının səsinə qulaq verəcəyinə insan özü qərar verir. Lakin mühit onun daxilində yer alan xeyrin üzə çıxmasına və ona hakim olmasına sanki izn vermir. Bunu biz onun tələbəsinin xəyanətiylə sarsılması anında görürük. Əhlimanın yaxşılıqlar elədiyi və özü qədər güvəndiyi tələbəsi onun hər şeyinə sahib çıxaraq ona zərbə vurur. Bayaq qəbirdə dirilən Əhliman, indi yenidən, həqiqətlərin ağırlığı altında dirilir və ən az qəbirdəki qədər

bu ağırlıq altında əzilir, nəfəsi kəsilir. Əhlimanın içində mövcud olan şər ondan asılı olmayan və baş verməsini istəmədiyi bir çox hadisənin baş verməsinə səbəb olur.

Müəllifin göz, nəzər kimi təsvir etdiyi bu hadisələrin əsasında Əhlimanın daxilində yatan şər qüvvələrin çoxluğu və ümumi məqsədə xidmət eləməsi durur. Onun qəzəbinə tuş gələn insanların başlarına dəhşətli bəlalar gəlir. Onu incidən insanlar Əhlimanın gözündən yaxa qurtara bilmirlər. Anarın obrazları epizodik rol oynasalar da, xarakter xüsusiyyətlərinə sahib obrazlar olur.

Yazıçının yaradıcılıq fəhminin əvəzolunmazlığı da buradan irəli gəlir. Burada Nəsrulla obrazını təsvir edən Anar oxuculara “Ölülər” əsərindəki Şeyx Nəsrullahı xatırladır. Adların bənzərliyindən əlavə, Şeyx Nəsrullahın ölüləri diriltməklə bağlı söylədiyi yalanlar başqa bir zamanda doğruluq payı qazanır. İllər keçib və hadisələr o qədər adiləşib ki, əsrlər öncə insanların var-dövlətindən keçərək şahidi olmaq istədiyi bu mənzərə Nəsrullahı qətiyyən təəccübləndirmir.

Artıq həyatın qanunauyğunluqları da birmənalı qəbullanılmır. Bu səbəbdən də, qəbir açıla, ölü də dirilə bilər. “Şeyx Nəsrullah dünyaya erkən gəlmişdir. Cəlil Məmmədquluzadənin klassik “Ölülər”indən çox əvvəl. Onu insanın özünə yox, möcüzələrə inamı yaratmışdır” [2].

Bu əsərdə isə biz Nəsrullahın zamanın dəyişikliklərinə uyğunlaşaraq dövrlərarası keçidini görürük. Anar hər şeyin adiləşdiyi bir dövrdə, hətta Cəlilin Nəsrullahını da ölülərin diriləcəyinə inandırır. Anarın əsərlərində qeyd etdiyimiz sonda ölüm motivi burada da öz əksini tapır. Əhliman sonda ölümə məhkum olur və bu ölüm yetərincə realdır.

Ümumi nəzər yetirdikdə isə, Əhliman kimi mistik bacarığa sahib, başqalaşmayan, digərlərindən tamamilə fərqli bir insanın bu qədər adiləşmiş bir həyatda çox yaşaması qeyri-mümkündür. Bu povest əvvəldən sonadək fəlsəfənin müxtəlif cərəyanlarının izlərindən ibarətdir və müəllifin fəlsəfi və bədii duyumu əsərin daha da oxunaqlı, sirli, həmçinin bəşəri ideyalara xidmət edən bir povest olmasına gətirib çıxarmışdır.

Mistika yazıçının əsərlərində tez-tez müraciət olunan istiqamət olduğu üçün bu povestdə də mistik hadisələr bir-birini əvəzləyir. Tənqidçilərin bəziləri bu əsərlə Anarın yaradıcılığının məntiqi sonu gəldiyini, bir qismi isə əksinə, yeni dövrün başlanğıcında olduğu fikrini irəli sürmüşdülər. İsa Həbibbəylinin bu mövzu haqqında fikirləri əsərin bir mərhələni sonlandıraraq, digərinə keçid funksiyası daşıması yönündədir. “Gözmuncuğu” romanı dövlət müstəqilliyini qoruyub möhkəmləndirmək niyyətinin ədəbiyyat dərsidir. “Gözmuncuğu” romanı Anarın Azərbaycan sevdasının nəzər duasıdır” [3]. Əsərin mövzusunun orijinallığı və ideya istiqamətlərinin bəşəri ideyalara xidməti deməyə əsas verir ki, Anar bu povestlə illər öncə altmışıncıların bir üzvü olaraq ədəbiyyata gətirdiyi yeni nəsr ideyasından sonra öz yaradıcılığında da yeni dövrün başlanmasına səbəb olmuşdur.

“Ağ qoç, qara qoç” romanı utopik və antiutopik cəmiyyətlərdə eyni surətlərin fərqli həyatlar yaşamasını təsvir edən mistik motivli və milli-mənəvi dəyərlərimizin təsviri ilə zəngin olan bir əsərdir. Azərbaycan xalqının, həmçinin ədəbiyyatının köklərinə inkaredilməz bağlılığının nəticəsidir ki, yazıçılarımız şifahi xalq ədəbiyyatında mövcud olan mövzulara, obrazlara günümüzədək təkrar-təkrar qayıdır, onlara keçmiş zaman tozunun hopmasına izn vermir. İstedadlı yazıçılarımızdan olan Anar da müasir dövrün yaradıcılıq nümunələrinə nəzər yetirməklə yanaşı, tariximizi, etnik mənsubiyyətimizi, əsrlərdən aşıb gələn adət-ənənələrimizi əsərlərində yeni ifadə üslubları ilə təsvir etmişdir.

“Ağ qoç, qara qoç” quruluşca obrazlar aləmi eyni olub, sujeti bir-birindən kəskin fərqlənən iki povestin birləşməsindən ibarətdir. “Məlikməmməd” nağılındakı hər kəsin uşaqlıqdan anladığı bu anlayışa Anar bu romanda yeni nəfəs verir.

Qədim zamanlardan “Avesta”da mövcud olan Xeyir-Şər ziddiyyəti kimi, ədəbiyyatımızda ağ-qara, keçmiş-gələcək kimi əks qütblərdən ibarət mövzulara tez-tez müraciət edilmişdir. Ağ qoçun belində işıqlı Azərbaycana, qara qoçun belində isə qaranlıq Azərbaycana gedən Məlik Məmmədlinin simasında Anar milli mənsubiyyətimizə və mənəvi dəyərlərimizə sadiq qalsaq və ya

əksinə, digər millətlərin mədəniyyətlərinə rəğbət bəsləyib özgələşsək, millətimizi gözləyən iki fərqli həyatı nəzərimizə çatdırır.

İlk nağıl utopik cəmiyyətin təsvirindən ibarətdir. Bu nağıla nəzər yetirdikcə, insanın qəlbi sanki qürur və rəğbətlə dolur və bu duyğu hər sətirdən etibarən bütün ruhumuzu ələ keçirir. Müəllifin ağ rəngdən "Ağ liman" və "Ağ qoç, qara qoç" əsərlərinin adlarında istifadəsi təsadüfi deyildir. Ağ rəng daim ümid, xoşbəxtlik rəmzi olsa da, eyni zamanda qalibiyyət simvolu kimi də xarakterizə edilir.

Qədim türk sərkərdələrinin döyüşə ağ at belində getməsi də bu baxımdan təsadüfi deyil. Məlik Məmmədlinin ağ qoçun belində getdiyi cəmiyyət də qalibiyyət duyğusunun hakim olduğu yer idi. Birinci nağılda milli dəyərlərə bağlılıq hissini biz əsərin ilk sətirlərindən duyuruq: "Məlik Məmmədli Dövlət himninin sədalarına oyandı" [1]. Himnin sədaları ilə oyanacaq qədər milliyyətinə bağlı olan bu surətin həyatı fonunda biz Azərbaycanın utopik cəmiyyətinin hər aspektdən mükəmməl göründüyü qənaətinə varırıq.

Televiziya kanallarının xalqın maariflənməsinə yönəlmiş verilişlərə üstünlük verməsi, küçə adlarından, siyasi partiyaların fəaliyyətinə qədər oxucunu sanki Nizaminin yaratdığı "Xoşbəxtlər ölkəsi"nin müasir versiyasına aparan Anar, düşüncəsində yer alan, hər bir azərbaycanlının xəyalını qurduğu Azərbaycanı əks etdirirdi.

Birinci nağıl Əli bəy Hüseynzadənin türkçülük, müasirlik, islamlaşmaq konsepsiyası əsasında qurulmuşdur. Güney və Quzey Azərbaycanın 16 şəhərinin adından istifadə edilməsi, 16 məşəllə təsvir edilən "Odlar sarayı"ndan bəhs edilməsi fəlsəfədə 16 ədədinin bütünlüyün simvolu olaraq qəbul edilməsinin nəticəsi olaraq meydana çıxmış ola bilər. Dilimiz milli dəyərlərimizin ən başlıca faktoru olduğu üçün bu nağılda öz dilimizə məxsus olan türkləşdirilmiş sözlərdən istifadə edən Anar yaratdığı utopik cəmiyyəti daha da rəngarəng çalarlara boyamışdır.

Novruzda mədəni irsə, etnoqrafik mövzulara aid verilişlərin nümayiş olunması yeni Azərbaycanın televiziyalarındakı üstünlüklərdən biri kimi təsvir olunur. Novruz bayramının tarixinin uzaq keçmişə söykənməsinə baxmayaraq, bu günə qədər yazın gəlişinin müjdəçisi kimi qeyd olunması davam edir.

Anarın birinci nağılda Şuşaya çəkilən funklyordan danışması, Şuşa ilə bağlı yazılan sətirlər əsərin 2003-cü ildə nəşr olunmasından son illərə qədər, doğrudan da, bu nağılın utopik dünyadan xəbər verdiyini deməyimizə səbəb olurdu. Lakin uzun illər sonra azad Şuşaya gedərək havasına, suyuna aşina ola bildiyimiz bu qalibiyyət ətirli illərdə insanın qəlbində Anarın təsvir etdiyi digər hadisələrin də baş tutacağına sonsuz ümid yaranır. İllər öncə reallaşan siyasi qarşıdurmalar yerini vətəndaş müharibəsinə ötürdüyü zaman hadisələr tamamilə başqa axarda baş verə bilərdi. Əsərin bu hissəsində adıçəkilən başqa axara isə oxucular ikinci nağılda qara qoçun belində səyahət edirlər.

İkinci nağılda təsvir olunan Azərbaycan üç zonaya bölünmüşdür: Behişti Badi-Kübə, Bakı Kommunası, Baku Siti. Hər üç zonada yaşayan vətəndaşlar adi həyatda bütöv Azərbaycanda birlikdə yaşayır. Başqa dövlətlərin mənəvi dəyərlərimizdən kəskin fərqlənən xüsusiyyətlərinə yiyələnən insanlar milli mənsubiyyətimizdən müxtəlif ideyaların təsiri ilə tamamilə qopmuş, xalqın milli varlığı inkar edilə bilməyəcək dərəcəsində yoxa çıxmışdı.

Oğlu Beyrəyin insanın sadəcə, özü üçün yaşamalı olduğunu deyib valideynlərinin taleyindən və duyğularından nigaranlıq duymaması xalqımızın əsrlərdir mövcud olan əsl ailə tipinə xəyanətidir. Digər tərəfdə qızı Burlanın rəqqasə olması, ismətli Azərbaycan qadınlarının varisi olan nəslin açıq-saçıq həyatı üstün tutması milli mənəviyyatımıza növbəti xəyanət idi. Həmçinin, Məlik Məmmədlinin həyat yoldaşı Aypərinin din adı altında insanların beyninin yuyularaq dünyadan təcrid olunduqları bir zonada yaşaması və bundan qurtulmağa cəhd etmək əvəzinə, sadəcə bu rejimə baş əyməklə kifayətlənməsi cəsarəti dillər əzbəri olan xalqımıza xəyanət idi.

Lakin biz cəmiyyətin məhvə sürüklənməsinə səssiz qalan Məlik Məmmədli kimi ziyalıların mübarizənin ön cərgələrində gözə dəyməməsinə əsasən deyə bilərik ki, dövlətinə, millətinə,

ailəsinə, xalqına, hətta özünə də əsl xəyanəti edən şəxs Məlik Məmmədli olmuşdur. “Bilmirdin ki, bir-birinə ədavət, kin püskürən bütün bu yazılar, çıxışlar, bu qan-qan deyən adamlar cəmiyyətdə elə bir nifrət potensialı yaradır ki, bir gün böyük partlayış baş verəcək, hər şey alt-üst olacaq?” [3]. Beyrək haqlı üsyan edirdi, lakin mübarizə səsini ucaltmağa gecikmiş hər bir vətəndaş kimi, Məlik Məmmədli üçün də zaman öz sözünü demişdi və beləliklə də onun hadisələrə təsir gücü demək olar ki, qalmamışdı.

Ümumiyyətlə isə Anarın bu əsərdə milli varlığımıza iki bucaqdan yanaşaraq təsirli bir əsər yaratması istər dəyərlərimizi ədəbiyyat səhifələrində qoruyub saxlamağımız, istərsə də milli etnik yaddaşımızı daha dərindən dərk edərək onun uğrunda Məlik Məmmədlidən fərqli olaraq savaşmağımız üçün vacib mənbə sayıla bilər.

## Nəticə / *Conclusion*

Yazıçı Anar Azərbaycan ədəbiyyatının mühüm şəxsiyyətlərindən biridir və onun əsərlərində magik realizmin elementləri tez-tez qarşımıza çıxır. Magik realizm, real dünyanı və fantastik elementləri birləşdirən ədəbiyyat üslubudur və Anarın əsərlərində də bu üslubun təsiri hiss olunur. Onun əsərlərində çox vaxt gündəlik həyatın mücərrəd və təbii hadisələrinə qeyri-adi və fantastik məqamlar əlavə olunur.

Nəticə olaraq, Anarın əsərlərində magik realizmin təsiri müxtəlif formalarda görünür:

1. Reallığın və fantastikanın sintezi: Anar, təbii və qeyri-təbii elementləri birləşdirərək oxucunu həm gündəlik həyatla, həm də fantastik, sehrli dünya ilə qarşılaşdırır. Bu, əsərlərinin daha dərin mənalarla zəngin olmasına kömək edir.

2. Simvolizm və metaforalar: Anar əsərlərində simvolik elementlərdən istifadə edir ki, bu da magik realizmin əsas xüsusiyyətlərindəndir. Onun əsərlərində müxtəlif metaforalar və işarələr, oxucunu reallıq və xəyali dünya arasında keçid etməyə dəvət edir.

3. Geyimi, yer və zamanın qeyri-müəyyənliyi: Bəzi əsərlərində zaman və məkan anlayışları qeyri-müəyyən olur. Bu da magik realizmin ən müəyyənedici cəhətlərindəndir, çünki oxucu əsərin fiziki və mistik reallıqları arasında sərhədsiz bir əlaqə hiss edir.

4. Duyğusal və ruhi aləmin təzahürləri: Anarın əsərlərində insanın daxili aləmi, onun ruhi vəziyyəti və hissləri də magik realizmin elementləri ilə təqdim edilir. Bu, oxuculara xarici dünyadakı qeyri-adi hadisələri daha dərindən anlamağa imkan verir.

Nəticə etibarilə, Anarın əsərlərində magik realizmin elementləri həm mövzuların, həm də üslubun bir hissəsi kimi yer alır və bu üslub onun ədəbi təsirini gücləndirir. O, oxucusunu gerçək və fantastik arasındakı sərhədləri aşmağa, dünyanı daha dərin və qeyri-adi bir perspektivdən görməyə sövq edir.

## Ədəbiyyat / *References*

1. Bəydili C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. – Bakı: Mütərcim, 2007, 272 s.
2. Hüseynov A. Nəsrimiz və keçmişimiz. – Bakı: “Azərbaycan” jurnalı, 1982, №9.
3. Qafarlı R. Mifologiya. 6 cilddə, I c. Mifogenez: rekonstruksiya, struktur, poetika. – Bakı, Elm və Təhsil, 2015, 454 s.

## Элементы магического реализма в творчестве писателя Анара

**Шахане Махмудзаде**
Институт литературы имени Низами  Гянджеви НАНА, диссертант
E-mail: shahane.mushfiq@gmail.com

**Резюме.** Магический реализм – литературный стиль, в котором граница между реальностью и вымыслом размыта, а один из аспектов реального мира сочетается с фантастическими и мистическими событиями. Характерные черты этого жанра, по сути, также образуют некоторые параллели в творчестве Анара.

Хотя некоторые события и образы в произведениях Анара соответствуют действительности, их трудно воспринимать как должное. Это одна из основных характеристик магического реализма: сосуществование фантастических и реальных элементов. Например, произведения сочетают в себе необычные события, мистическую атмосферу, описания «невидимых миров» и в то же время естественные факты и объекты, которые часто имеют место в реальной жизни. Элементы магического реализма в творчестве писателя составляют основу его неповторимого литературного стиля. Изображенные элементы позволяют читателю понять не только физический мир, но и духовный, мистический и психологический миры. Это занимает интересное место как в азербайджанской, так и в мировой литературе.

**Ключевые слова:** шестидесятые, Анар, творчество писателя, магический реализм, анализ